**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

№ 24 «09» Fevral 2016 - cı il

**Sahibkarların inkişaf etdirilməsi və əhalinin məşğulluq səviyyəsinin artırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrasını təmin etmək məqsədilə Qərargahın yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevın 10 yanvar 2016-cı il tarixdə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, 18 yanvar 2016-cı il tarixdə cənab Prezidentin sədrliyi ilə iqtisadi və sosial durumla bağlı keçirilən müşavirədə, həmçinin 26 yanvar tarixində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda şəhər, rayon icra hakimiyyətlərinin müvafiq ərazilərində iqtisadi durumun yaxşılaşdırılması, sağlam biznes mühitinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, sahibkarların qarşısında yaradılan süni maneələr aradan qaldırılması, yeni iş yerlərinin açılması, investorlar tərəfindən şəhər və regionlarda investisiya qoyuluşunun artırılmasına şərait yaradılması tapşırığı verilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olan tövsiyələrdə əhalinin məşğulluq səviyəsinin artırılması,yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqların icrasını təmin etmək məqsədilə yerlərdə şəhər, rayon icra hakimiyyəti başçılarının rəhbərliyi ilə xüsusi qərargahların yaradılması tağşırığı verilmişdir. Yuxarıda qeyd olunan məsələlərin təxirə salınmadan həll edilməsi istiqamətində əməli tədbirlərin görülməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.5.1, 4.5.7, 4.5.8 və 6.8-ci bəndlərini rəhbər tutaraq

Q Ə R A R A   A L I R A M :

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatı yanında sahibkarlığın inkişaf etdirilməsi və əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədi ilə aşağıdakı tərkibdə Qərargah yaradılsın.

**Qərargahın sədri:**

- Xaləddin İsgəndərov — Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı

**Qərargahın üzvləri:**

- İlqar Suleymanov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini
- Vüsar İsmayılov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini
- Ramiz Göyüşov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi müdiri
- Yəhya Əliyev — Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri
- İskəndər Cahangirzadə — Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri
- Anar Səfərov — Sakinlərin Müraciət Xidmətinin rəisi
- Aytac Əliyeva — Binəqədi qəsəbə bələdiyyəsinin sədri
- Hikmət Quliyev — Biləcəri Bələdiyyəsinin sədri

- Anar Abbasov — Xocəsən bələdiyyəsinin sədri
- Hümbət Hüseynov — M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri
- Sitarə Cabbarlı — Binəqədi rayon bələdiyyəsinin sədri
- Yusif Ağayev — Binəqədi sahibkarlar birliyinin sədri
- Tofiq Əliyev — "El kiçik müəssisisə" nin rəhbəri
- Salman Umudov — "Gənc Sahibkarlar klubu"QHT-nin rəhbəri

2. Qərargaha tapşırılsın:
   - Rayonda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rəhbərləri ilə görüşlər keçirsinlər, onların təkliflərini müzakirə edərək investisiya qoyulacaq sahələri müəyyənləşdirsinlər və bu istiqamətdə onlara hərtərəfli dəstək göstərsinlər;
   - Sahibkarlardan və rayon sakinlərindən daxil olmuş məlumatlara baxılmasının operativliyini təmin etmək məqsədilə RİH başçısı Aparatında 1646 - Sakinlərin Müraciət Xidmətində, 012-568-48-32 (544, 533) nömrədə qaynar xətt yaradılsın və bu barədə RİH başçısı Aparatının elektron saytında və facebook səhifəsində məlumat yerləşdirilsin.
3. Aparatın Sosial- iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə və İnformasiya təminatı və təhlil sektorunun müdiri İskəndər Cahangirzadəyə tapşırılsın:
   - Rayonun sosial-iqtisadi inkişafı ilə bağlı mövcud vəziyyəti ciddi təhlil edərək, sahibkarlığın inkişaf istiqamətlərini müəyyənləşdirərək öz təkliflərini 15 gün müddətində qərargaha təqdim etsinlər;

- Binəqədi rayonu ərazisində sahibkarlığın inkişafı sahəsində ölkə prezidentinin tapşırığına uyğun olaraq yaradılmış şərait barədə kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə geniş təşviqat işlərini təşkil etsinlər;
- Rayon ərazisində fəaliyyət göstərən ticarət obyektlərində "İstehlak mallarının süni qiymət artımına qarşı nəzarət üzrə Komissiya"nın təsdiq etdiyi işçi qrupu tərəfindən mütəmadi monitorinqlər keçirsinlər və nəticələrini təhlil edərək RİH başçısına məlumat versinlər.

4. Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova, müavini Vüsar İsmayılova, Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşova və Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə tapşırılsın:
   - Binəqədi rayon ərazisində Sənaye məhəlləsinin yaradılması barədə təklifləri hazırlayaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə təqdim olunmasını təmin etsinlər;
   - Sahibkarlarla, rayon sakinləri ilə davamlı olaraq keçirilən görüşlər və qəbullar zamanı irəli sürülən təklif və fikirlər əsasında yeni sahibkarlıq obyektləri və iş yerlərinin yaradılması barədə müraciətlərə operativ olaraq baxaraq zəruri tədbirlər görsünlər.
5. Rayonda fəaliyyət göstərən bələdiyyələrə tövsiyə edilsin ki, yeni iş yerlərinin, istehsal və xidmət sahələrinin yaradılması barədə təklifləri ən qısa müddətdə RİH-ə təqdim etsinlər.
6. Qərargaha tapşırılsın ki, rayon bələdiyyələrindən daxil olan təklifləri təhlil edərək, onların reallaşdırılmasına hərtərəfli köməklik göstərsinlər.
7. RİH başçısının birinci müavini İlqar Süleymanova və Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşova tapşırılsın ki, rayon ərazisində süni qiymət artımının qarşısını almaq, kənd təsərrüfatı məhsullarının bolluğunu, istehsalçılar ilə istehlakçılar arasında birbaşa əlaqə yaratmaq məqsədilə ölkənin müxtəlif

regionlarının bələdiyyələri ilə Rayon Bələdiyyələrinin əlaqələrinin qurulmasına əməli köməklik göstərsinlər.

8. Aparatın Sosial- iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə və Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşova tapşırılsın ki, görülən işlər barədə məlumatların hər ayın 1-i və 15-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinə ötürülməsini təmin etsinlər.
9. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**№ 24**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**